# QƏRBİ AZƏRBAYCAN MƏTBUATININ GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

"Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana verilmişdir. Mən inanıram ki, bizim bölgədə hər şey Azərbaycan xalqının xeyrinə dəyişəcək, xalqımız gələcəkdə mütləq və mütləq gedib öz gözəl Göyçə torpağını, doğma dağlarını, bulaqlarını, çaylarını, ata-babalarının qəbirlərini görəcəkdir. Mən buna heç şübhə etmirəm". Ümummilli Lider Heydər Əliyev bu sözlərini özümüzə rəhbər tutaraq tariximizi, keçmişimizi xatırlamalı, araşdırmalı və paylaşmalıyıq. Qərbi Azərbaycanın bizim tarixi torpaqlarımız olduğunu hamı bilməlidir. O torpaqlarin yetişdirdiyi şəxsiyyətlərin Azərbaycan elminə, mədəniyyətinə, təhsilənə verdiyi töhfələri daim xatırlamalı və unutdurmamalıyıq. Bu yazıda Qərbi Azərbaycan mətbuatının görkəmli nümayəndələrinin bir neçəsi haqqında topladığım məlumatlar nəzərinizə çatdıracam. Azərbaycan mətbuat salnaməsinin ayrılmaz parçası olan İrəvanda nəşr edilən mətbu orqanlarının tarixinin daha dərindən araşdırılması mətbuat tarixinin zənginləşməsinə xidmət edir.

Cabbar Əsgərzadə - Əsgərzadə Cabbar Əsgər oğlu 1885-ci ildə İrəvan şəhərində anadan olmuşdur. O, ilk təhsilini mollaxanada almış, on beş yaşından isə evlərdə kiçik yaşlı uşaqlara dərs deməklə məşğul olmuşdur. "Qafqaz" qəzetinin müxbirlərindən biri kimi jurnalistlik fəaliyyətinə başlamışdır. "Molla Nəsrəddin" məcmuəsində də şeir və məqalələrlə çıxış etmişdir. İrəvan qubernatorunun 21 yanvar 1914-cü il tarixdə Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadəyə verdiyi icazəyə əsasən onlar həmin il fevralın 22-də satirik "Lək-lək" jurnalının ilk nömrəsini buraxmışdılar. "Lək-lək"in cəmisi 8 nömrəsi işıq üzü görmüşdür. Dövri mətbuatda çıxan satirik şeirləri və publisistik yazıları onu təqiblərə məruz qoymuşdur. Digər tərəfdən, xəstəliyi ilə əlaqədar o, Cənubi Azərbaycanın Mərənd şəhərinə köçməyə məcbur olmuşdur və burada Əhmədiyyə məktəbində müəllim işləmişdir. Sonra o, Təbriz şəhərinə dəvət olunmuşdur. Burada uşaq bağçasının açılmasına kömək etmiş, kar və lal uşaqlar üçün məktəb təşkil etmiş (1922-1927), Şirazda uşaq evində pedaqoji fəaliyyətini davam etdirmişdir (1927-1933). Sonra Tehranda korlar və lallar üçün məktəb açmışdır. Burada "Zəban" adlı pedaqoji jurnal nəşr etmiş (1942), eyni zamanda ictimai, ədəbi və pedaqoji fəaliyyətini davam etdirmişdir. Onun çoxcəhətli yaradıcılığı - pedaqogika, poeziya, incəsənət, musiqi, mədəniyyət və səhiyyə ilə sıx bağlı idi. Ərəb, fars və rus dillərini mükəmməl bilmiş, xarici ölkə xalqlarının seçmə poeziyasından tərcümələr etmişdir. Əsərlərini Azərbaycan və rus dillərində yazmışdır. Lirik şeirlərini C.Əsgərzadə, Aciz, Bağçaban, satirik şeirlərini isə "Məhkəmə pişiyi", "Noxtalı", "Leyləyin yuvadibisi", "Molla haray" və s. imzaları ilə çap etdirmişdir. Onun kiçik yaşlı uşaqlar və məktəblilər üçün yazdığı mənzum hekayələri də nəşr olunmuşdur. Maarif sahəsindəki xidmətlərinə görə Tehran Universiteti ona professor adı vermişdir.

**Cabbar Əsgərzadə 1966-cı ilin payızında Tehranda vəfat etmişdir.**

**Əli Məhzun Zeynalabdinzadə Rəhimov - Əli Hacı Zeynalabdin oğlu Rəhimov (Əli Məhzun) 1886-cı ildə İrəvan şəhərində anadan olmuşdur. Mollanəsrəddinçi, şair, publisist özünə "Məhzun" təxəllüsü götürmüşdür. Yüksək erudisiyaya malik ziyalı, istedadlı qələm sahibi Əli** Məhzun hələ yeniyetmə çağlarından ədəbiyyata maraq göstərmişdir. Əsərləri "Molla Nəsrəddin", "Məzəli", "Babayi-Əmir" jurnallarında, "İqbal", "Sədayi-həqq" qəzetlərində və s. mətbuat orqanlarında dərc edilmişdir.

Əli Məhzun "Anaş qurbağa", "Yetim cücə" imzaları ilə yazılarını dərc etdirirərək özünü qaragüruhçulardan qorumağa çalışırdı. 25 mart 1913-cü ildə Əli Məhzun Rəhimzadə və Əsgər Axundov İslam Dram Şirkəti adlı bir şirkətin fəaliyyəti üçün İrəvanın rəsmi dairələrindən icazə almışdılar. Öz ətrafında gənc aktyorları birləşdirən bu şirkətin aktyorları qısa müddət ərzində "Kimdir müqəssir?", "Pul dalınca", "Ac həriflər", "Sevgili övlad", "Millətpərəstlər, yaxud ürəfa qiyafəsində süfəha", "İbrahim bəy, yaxud istibdad qurbanı", "Aldandılar", "Səfalətin sonu" əsərlərini tamaşaya qoymuşdular.

Əli Məhzunun müdir və redaktorluğu və İrəvanın nüfuzlu ziyalılarından Həsən Mirzəzadə Əliyevin naşirliyi ilə 1917-ci il yanvarın 1-də "Bürhani-həqiqət" məcmuəsi işıq üzü görmüşdür. İstiqaməti ədəbi, siyasi, tarixi, elmi və fənni olan "Bürhani-həqiqət"in işıq üzü görməsi İrəvanın ictimai-siyasi həyatında, ədəbi mühitində mühüm hadisə olmuşdur. İrəvandakı "Luys" mətbəəsində ayda iki dəfə nəşr edilən məcmuənin cəmi 9 nömrəsi işıq üzü görmüşdür. Əli Məhzun İrəvan şəhərində yaşayan müxtəlif ixtisaslı ziyalıları, İrəvan Müəllimlər Seminariyasının tələbələrini xalqın maarifləndirilməsi məqsədilə məcmuə ilə əməkdaşlığa cəlb etmişdi. "Bürhani-həqiqət" öz oxucusunu cəhalət zülmündən xilas etməklə yanaşı, baş verən hadisələri həqiqətin dili ilə izah etmək, ayrı-ayrı partiyaların və qurumların əsl məqsədini kütlələrə izah etmək, qətl və qarətlərin, kütləvi qırğınların arxasında duran qüvvələri göstərmək, ermənilərin İrəvandakı maddi-mədəniyyət abidələrimizin tarixini saxtalaşdırmaq cəhdlərinin qarşısını almaq kimi bir missiyalar da daşıyırdı.

Ermənilərin 1918-1920-ci illərdə İrəvanda azərbaycanlılara qarşı törətdikləri qırğınlar zamanı Əli Məhzun şəhəri tərk edərək Azərbaycanda məskunlaşmış, müxtəlif mətbuat orqanlarında fəaliyyət göstərmişdir.

Əli Məhzun 1934-cü ildə vəfat etmişdir.

Bala Əfəndiyev - Qərbi Azərbaycanın böyük oğlu Bala Əfəndiyev 1893-cü ildə Gəncə quberniyasının Qazax qəzasında daxil olan Qaraqoyunlu mahalının (Qərbi Azərbaycanın Çəmbərək rayonunun) Çaykənd kəndində ruhani ailəsində anadan olmuşdur. Atası İbrahim Əfəndi Bala Əfəndiyev dünyaya gəlməmiş vəfat etdiyi üçün o, əmilərinin himayəsində böyümüşdür. Bala Əfəndiyev ilk təhsilini kənd mollaxanasında almışdır. 1907-ci ildə Çaykənddə açılan rus-tatar məktəbinə daxil olmuş, növbəti ildən Qazaxdakı dördsinifli rus məktəbində təhsilini davam etdirmişdir. Burada o, rus, ərəb və digər dilləri öyrənməklə yanaşı, təhsildə nümunəvi nəticələr göstərmişdir.

1912-ci ildə Bala Əfəndiyev Bakıya gəlmiş və burada Sabunçuda "Molot" zavodunda fəhlə işləmişdir. Daha sonra Şubanı neft mədənlərində iş icraçısı kimi çalışmış və siyasi fəaliyyətə başlamışdır. 1918-ci ildə Bakı qəza komissarı, 1920-ci ildə isə Gəncə quberniyasının fövqəladə komissarı təyin edilmişdir.

1921-ci ildə Zaqafqaziya Ölkə Komitəsi Bala Əfəndiyevi Ermənistana göndərərək xalq daxili işlər komissarının müavini təyin etmişdir. Burada o, azərbaycanlı qaçqınların doğma yurdlarına qayıdışı üçün çalışmış, həmçinin Qərbi Azərbaycanda mədəni və maarifçilik sahəsində irəliləyişlərə nail olmuşdur. Onun təşəbbüsü ilə İrəvanda Qadınlar Klubu və Pedaqoji Texnikum yaradılmışdır. O həmçinin qaçqınlıq nəticəsində sahibsiz qalmış azərbaycanlı uşaqlar üçün kimsəsiz uşaqlar evi təsis etmişdir.

Bala Əfəndiyev Azərbaycanda başlanan latın əlifbası hərəkatının İrəvanda rəhbəri olmuş, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayda Ermənistan nümayəndə heyətinin başçısı kimi iştirak etmişdir. Bala Əfəndiyev qurultayın 15-ci iclasında İrəvanda Azərbaycan məktəblərinin də yeni türk əlifbası əsasında ana dili tədrisinin bəzi məsələlərindən danışmış və bu haqda qurultayın qərar layihəsini hazırlayan komissiyanın tərkibinə daxil edilmişdi.

İrəvanda yaşadığı müddətdə azərbaycanlıların savadlandırılması və hüquqlarının qorunması istiqamətində Bala Əfəndiyev mühüm işlər görmüş, həmçinin İrəvanda Azərbaycan dilində əvvəlcə "Rəncbər", sonralar isə "Zəngi"adı ilə nəşr olunan qəzetin təşəbbüskarı və redaktoru olmuşdur.

Bir qrup İrəvan ziyalıları, xüsusən EK (b) P MK-nın yanında fəaliyyət göstərən "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyev erməni şovinist dairələrə Azərbaycan dilində mətbu orqanın nəşrinə icazə almaq üçün dəfələrlə rəsmi şəkildə müraciət etsə də, qəzetin nəşrinə icazə verilmirdi. Lakin Bala Əfəndiyev çətinliklərin öhdəsindən gələrək Azərbaycan mətbuatı tarixində mühüm bir vəzifəni yerinə yetirdilər. Onun və məsləkdaşlarının milli-siyasi iradəsi, qətiyyəti, uzunmüddətli gərgin mübarizəsi sayəsində Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən 1924-cü il noyabr ayının ortalarında Azərbaycan dilində "Zəngi" qəzetinin nəşr olunmasına icazə verildi .

Bala Əfəndiyev 1927-ci ildən 1928-ci ilin sonlarınadək Ermənistan SSR xalq ictimai təminat komissarı vəzifəsində işləmişdir. 1929-cu ildən Azərbaycanda fəaliyyət göstərərək Mərkəzi Komitədə çalışmış, Mərkəzi Nəzarət Komissiyasının katibi, daha sonra Sabirabad, Lənkəran və Zaqatala rayonlarında rəhbər vəzifələrdə işləmişdir.

Bala Əfəndiyev repressiyaya məruz qalmış, 1938-ci il yanvar ayında güllələnmişdir. Təqribən 20 il sonra günahsız olduğu sübuta yetirildikdən sonra bəraət almışdır. Onun xatirəsi doğulduğu Çaykənd kəndində əbədiləşdirilərək adını daşıyan tam orta məktəb açılmış və büstü ucaldılmışdır.



***Ramidə ABBASOVA,***
***AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi şöbəsi***